**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaş Cəfərov Fərahim Abdulqəfər oğlunun 26 dekabr 2009-cu il tarixli 144 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

# Q Ə R A R I

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində İmişli rayonu, Qaradonlu kənd sakini Cəfərov Fərahim Abdulqəfər oğlu 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, 79 saylı İmişli seçki dairəsinin ərazisində yerləşən Qaradonlu bələdiyyəsi üzrə seçkilərin nəticələrinin saxtalaşdırıldığını, bu barədə aidiyyətli orqanlara qabaqcadan xəbər verdiyini, lakin heç bir tədbirin görülmədiyini bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimatın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciət araşdırılarkən müəyyən olunmuşdur ki, Cəfərov Fərahim Abdulqəfər oğlu 2009-cu il dekabrın 28-dək 79 saylı saylı İmişli seçki dairəsinin dairə seçki komissiyasına heç bir məsələ ilə əlaqədar müraciət etməmişdir. Eyni zamanda, ərizəçinin iddia etdiyi qanun pozuntularının müvafiq seçki dairəsinin ərazisində yerləşən seçki məntəqələrini əhatə etdiyini və müraciətdə göstərilən halların dairə seçki komissiyası tərəfindən müəyyənləşdirilməli olduğunu nəzərə alaraq, müraciət aidiyyəti üzrə araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün 79 saylı İmişli seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1 və 31.1.2-ci maddələrinə əsasən seçki dairəsinin ərazisində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının riayət olunmasına nəzarəti, Seçki Məcəlləsinin qaydalarının pozulması ilə bağlı şikayətlərə baxıb öz səlahiyyətləri daxilində qərarların qəbul edilməsini dairə seçki komissiyaları həyata keçirir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Cəfərov Fərahim Abdulqəfər oğlunun 26 dekabr 2009-cu il tarixli 144 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 79 saylı İmişli seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Qərarın icrası barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına məlumat verilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

| | |
|---|---|
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Almas Qəhramanlı |
| | Oktay Hümbətli |